**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**КАМАЛ ФАТУЛЛА оглы МАХМУДОВ**

# СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ ПРОЦЕССЫ В АЗЕРБАЙДЖАНЕ ВО ВТОРОЙ ПОЛОВИНЕ 50-ых ГОДОВ XX ВЕКА

Специальность: 5503.02 – "Отечественная история"

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени доктора
философии по истории

**БАКУ-2014**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**KAMAL FƏTULLA OĞLU MAHMUDOV**

# XX ƏSRİN 50-Cİ İLLƏRİNİN İKİNCİ YARISINDA AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ PROSESLƏR

İxtisas: 5503.02 - Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2014**

Dissertasiya işi Lənkəran Dövlət Universitetinin "Tarix və fəlsəfə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
tarix üzrə elmlər doktoru, professor: **İ.X. Zeynalov**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, professor **İ. M.Məmmədov**
tarix üzrə fəlsəfə doktoru, dosent **C.Ş.Sadıqov**

**Aparıcı elmi müəssisə: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası**

Müdafiə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013-cü il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış 5503.02-"Vətən tarixi" ixtisası üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 saylı Dissertasiya Şurasının «13» dekabr 2014-cü il tarixli iclasında saat ________da keçiriləcəkdir.

Ünvan: Az-1148, Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi, 23

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «____» noyabr 2014-cü ildə göndərilmişdir.

**D.02.161 Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor: S.Y.Süleymanova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Müstəqilliyimizin bərpasından keçən zaman kəsiyində vətən tarixinin önəmli problemlərinin tam obyektiv öyrənilməsi sahəsində xeyli işlər görülsə də, hələ də tədqiq edilməsinə ehtiyac duyulan problemlər çoxdur. Çünki Azərbaycan tarixinin tədqiqi sovetlər dövründə ideoloji maneələrə, qadağalara məruz qalmış, tarixi həqiqətlərin obyektiv şəkildə öyrənilməsinə şərait yaradılmamışdı. SSRİ-də hakim olan kommunist ideologiyası həyatın bütün sahələrini öz nəzarətində saxladığı və istiqamətləndirdiyi üçün, digər elm sahələri kimi tarix elmi də, həmin ideologiyaya əsaslanır və onu təbliğ edirdi. Buna görə də tarixi faktlar, ictimai və siyasi proseslər kommunizm ideologiyası əsasında şərh olunur, bu ideologiyanın ehkamlarına uyğun gəlməyən real gerçəklik saxtalaşdırılır, təhrif olunurdu. Sovetlər Birliyində iqtisadi və sosial inkişaf mərkəz tərəfindən idarə olunan vahid xalq təsərrüfatı sisteminə əsaslanırdı. Müttəfiq respublikaların, o cümlədən Azərbaycan SSR-nin də hüquqları mərkəz tərəfindən məhdudlaşdırıldığı üçün onların iqtisadi və sosial inkişafa təsir imkanları məhdud idi. Bu baxımdan Azərbaycanın iqtisadi, sosial inkişafı milli maraqlar əsasında deyil, mərkəzin maraqları əsasında həyata keçirilirdi.

XX yüzilliyin 50-ci illərinin ikinci yarısında Azərbaycan iqtisadiyyatının mühüm sahələrində, sosial həyatda ciddi keyfiyyət dəyişiklikləri ilə yanaşı sovet dövründə tədqiqatdan kənarda qalmış bir çox problemlərin tarixi faktlar, arxiv sənədləri əsasında öyrənilməsi mövzunun aktuallığını göstərir. Bu dövrdə iqtisadiyyatın inkişafında milli maraqların önə çəkilməsi, ölkənin coğrafi-iqlim şəraitinin nəzərə alınması, yeni sənaye sahələrinin yaradılması, kənd təsərrüfatı sahəsində mühüm nailiyyətlərin əldə olunması, sosial sahəsindəki uğurların, eyni zamanda mövcud olan problemlərin, ziddiyyətlərin öyrənilməsi və təhlil edilməsi tədqiqat işinin ən önəmli məsələlərindəndir.

Tədqiq olunan dövrdə Bakıda sürətlə inkişaf edən sənaye müəssisələrinin işçi qüvvəsinə olan ehtiyacını Azərbaycanının bölgələrindən gələn gənclərin işə cəlb olunması hesabına təmin edilməsi nəticəsində demoqrafik vəziyyəti dəyişdirməklə mərkəzin Bakı şəhərini ittifaq tabeçiliyinə vermək planının pozulması ilə bağlı məsələlərin geniş şəkildə araşdırılması işin aktuallığını daha da artırır. Azərbaycan tarixinin yenidən tədqiqinə ehtiyac yaranan problemlərindən biri də XX əsrin 50-ci illərinin ikinci yarısında Azərbaycanın sosial-iqtisadi inkişafında əldə edilən təcrübənin, həmçinin çətinliklərin, problemlərin səbəblərinin

araşdırılıb ümumiləşdirilməsidir. Mərkəzin XX əsrin 50-ci illərin ikinci yarısında Azərbaycandakı inkişafa, nailiyyətlərə qısqanclıqla yanaşması, ölkədəki milli-dirçəliş meyllərinin ittifaq rəhbərliyinin güclü müqaviməti ilə qarşılaşması, respublikada aparıcı qurumlara rəhbərlik edən şəxslərin müxtəlif bəhanələrlə vəzifələrindən kənarlaşdırılması kimi problemlərin araşdırılması da tədqiqat işinin aktuallığını göstərən amillərdən biridir.

XX əsrin 50-ci illərinin ikinci yarısında respublikada gedən sosial-iqtisadi proseslərin kompleks şəkildə tədqiqi müstəqil Azərbaycan dövlətinin inkişafında faydalı ola biləcək praktik tövsiyələr verilməsi baxımından da mühüm əhəmiyyət daşıyır.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqat işi XX yüzilliyin 50-ci illərinin ikinci yarısını əhatə edir. Lakin bu dövrün reallıqlarını obyektiv şəkildə şərh etmək üçün 50-ci illərin ortalarındakı proseslər də tədqiq olunmuşdur. Problemin məhz bu tarixi zaman kəsiyində tədqiq edilməsi bir sıra məntiqi mülahizələrə söykənir. Bu dövr Azərbaycanın iqtisadi, siyasi və sosial inkişaf tarixində bir sıra səciyyəvi xüsusiyyətləri ilə əvvəlki dövrlərdən fərqlənir. İmam Mustafayevin respublikaya rəhbərlik etdiyi dövrdə ölkənin sosial-iqtisadi və mədəni inkişafı ilə bağlı bir sıra mühüm tədbirlər həyata keçirildi. Bu illərdə iqtisadiyyatın respublikanın təbii-iqlim şəraitinə uyğun olaraq inkişaf etdirilməsi və Azərbaycanın iqtisadi müstəqilliyinin təmin olunmasına cəhd edildi. Respublikanın sosial həyatında da müsbət dəyişikliklər baş verdi.

Tədqiqatın xronoloji çərçivəsi bu dövrdə Azərbaycan SSR-də gedən sosial-iqtisadi proseslərin tədqiqinə, təhlilinə və ümumiləşdirilmiş nəticələr çıxarılmasına imkan verir.

**Problemin öyrənilmə səviyyəsi**. Tədqiqatın öyrənilmə səviyyəsi təhlil edilərkən tarixşünaslığın araşdırılmasında Azərbaycan respublikası ilə yanaşı keçmiş SSRİ-də yazılmış bir sıra elmi əsərlərdən, tədqiqat işlərindən və mənbələrdən istifadə olunmuşdur. Tədqiqat işinin əsas məqamlarından biri də tarixşünaslığın aparıcı problemlərindən olan sənayenin inkişaf səviyyəsinin öyrənilməsi təşkil edir. Tədqiqat dövrünə aid problemin bu və ya digər aspektlərini əks etdirən dissertasiya və əsərlərdən R. Qədimovun 1965-ci ildə müdafiə etdiyi ”Azərbaycanın neftçıxarma sənayesinin daha da inkişaf etdirilməsi uğrunda fəhlələrin mübarizəsi” (1951-1958-ci illər) adlı namizədlik dissertasiyasını, Ə. Əliyevin ”Sovet hakimiyyəti illərində Azərbaycan neft sənayesinin inkişafı” adlı əsərini qeyd etmək olar. Ö. Osmanlının “Azərbaycan SSR-də filiz - mədən sənayesi və əlvan metallurgiyanın inkişafı” əsərində bu

sahələrin inkişaf dinamikası öz əksini tapmışdır.[1]

Tədqiqat işində tarixşünaslığın mühüm sahələrindən biri olan XX əsrin 50-ci illərində kənd təsərrüfatı və sosial sahələrdəki vəziyyət də araşdırılmışdır. X. Əlimirzəyevin "Kənd Təsərrüfatının əsaslı yüksəlişi uğrunda", "Azərbaycan kəndi Sovet hakimiyyəti illərində", "Azərbaycan kolxoz quruculuğu yollarında" adlı əsərlərində kənd təsərrüfatının inkişafında əldə olunan bütün uğurlar kommunist partiyasının adı ilə bağlanır, mövcud olan problemlərdən isə bəhs olunmur.[2] M.Poladovun "Azərbaycan SSR-in kənd təsərrüfatı 40 ildə" adlı əsərində tədqiq olunan dövrə dair geniş məlumatlar verilsə də, kənd təsərrüfatının inkişafındakı uğurlar qabardılmış, sovet quruluşuna xas olan nöqsanlar diqqətdən kənarda qalmışdır.[3] T. Vəliyev "Sovet Azərbaycanı zəhmətkeşlərinin rifah halının daima yaxşılaşması" əsərində əhalinin sosial vəziyyətində müşahidə olunan müsbət meylləri göstərsə də, mövcud olan problemlərin mahiyyətini düzgün şəkildə işıqlandırmamışdır.[4] Araşdırmalar göstərir ki, bu əsərlərin heç birində XX əsrin 50-ci illərinin ikinci yarısında Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri tam obyektiv şəkildə tədqiq olunmamışdır. Tədqiq olunan məsələlər sosializm cəmiyyətinin, mərkəzin tələblərinə uyğun olaraq araşdırılmışdır.

Keçmiş SSRİ-də yazılmış elmi ədəbiyyatlardan B.Y. Patonun müəllifi olduğu "Yüz dəfə ölçmək" adlı əsərdə xeyli materiallar toplanmışdır ki, onlarla tanışlıq tədqiqat işinin yazılmasına, bəzi məsələlərin aydınlaşdırılmasına kömək etmişdir.[5]

Müasir dövrdə nəşr olunmuş XX əsrin 50-ci illərindən də bəhs edən elmi ədəbiyyatlar arasında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin "Azərbaycanın Xəzər nefti" kitabını xüsusi qeyd etmək lazımdır.[6] Bu əsərdə Azərbaycanın neft sənayesinin inkişafına dair sovet tarixşünaslığında öz əksini tapmamış bir sıra mühüm məlumatlar vardır.

---

[1] Osmanlı Ö. Azərbaycan SSR-də filiz-mədən sənayesi və əlvan metallurgiyanın inkişafı. Bakı: Azərnəşr, 1984 (105 s.)

[2] Əlimirzəyev X. Azərbaycan kəndi Sovet hakimiyyəti illərində. Bakı: Azərnəşr, 1963 (208 s.); Əlimirzəyev X. Kənd təsərrüfatının əsaslı yüksəlişi uğrunda. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, 1955 (50 s.)

[3] Poladov M. Azərbaycan SSR-in kənd təsərrüfatı 40 ildə. Bakı: Azərnəşr, 1960 (179 s.)

[4] Vəliyev T. Sovet Azərbaycanı zəhmətkeşlərinin rifah halının daima yaxşılaşması. Bakı: Azərnəşr, 1959 (73 s.)

[5] Патон Б.Е. Сто раз отмерить. Москва: Советская Россия, 1989 (105 с.)

[6] Алиев И.Г. Каспийская нефть Азербайджана. Москва, Известия, 2003 (712 с.)

Yeddi cildlik “Azərbaycan tarixi” kitabının yeddinci cildində 1941-2002-ci illər Azərbaycan tarixi geniş şərh olunur.[1] Bu əsərdə tədqiq etdiyimiz dövrün tarixi kompleks şəkildə araşdırılmışdır. Tədqiqatçı alim İ.X. Zeynalovun “Azərbaycanın sosial-iqtisadi inkişafı-XX əsrin II yarısında” adlı əsərində respublikanın sosial-iqtisadi tarixi müasir dövrün tələbləri əsasında, sovet dövründə müxtəlif səbəblərdən tədqiqatdan kənarda qalmış tarixi məlumatlar tədqiqata cəlb olunmaqla, geniş təhlil olunmuşdur.[2] Cəmil Həsənlinin “Xruşşov dövründəki “mülayimləşmə” və Azərbaycanda milli məsələ” (1954-1959) adlı əsərində bu dövrdə Azərbaycanda cərəyan edən ictimai-siyasi proseslər geniş şərh olunmuşdur.[3]

Bu baxımdan da inzibati-amirlik idarə üsulunun süqut etdiyi, sərbəst bazar iqtisadiyyatının formalaşdığı bir dövrdə elmilik, tarixilik, millilik və obyektivlik prinsiplərinə əsaslanan tarixi tədqiqatlara, o cümlədən XX əsrin 50-ci illərinin ikinci yarısını əhatə edən, Azərbaycanın iqtisadi və sosial inkişaf tarixinin öyrənilməsinə həsr olunmuş tədqiqatlara böyük ehtiyac vardır.

**Tədqiqatın mənbəşünaslıq bazası**: Dissertasiya müxtəlif mənbələr, arxiv sənədləri, mətbuat, dissertasiya materiallarından, müxtəlif statistik məcmuə və sənədli nəşrlər əsasında yazılmışdır.

“Azərbaycan SSR-in xalq təsərrüfatı. Statistik toplu” adlı məlumat kitabçasında xalq təsərrüfatının inkişafını göstərən rəqəmlər reallığı tam şəkildə əks etdirmir.[4] “Azərbaycan SSR-nin xalq təsərrüfatı SSSR-nin 50 illiyində” adlı statistik topluda sovet dövründə Azərbaycanın inkişafını göstərən geniş məlumatlar verilmişdir.[5] İ.D. Mustafayevin AKP-nin 22-ci qurultayında söylədiyi hesabat məruzəsində respublikanın sosial-iqtisadi inkişafı haqqında geniş məlumatlar öz əksini tapmışdır.[6] 1963-cü ildə çap olunmuş üç cildlik “Azərbaycan tarixi” kitabının üçüncü cildinin ikinci

---

[1] Azərbaycan tarixi: 7 cilddə, VII c., Bakı: Elm, 2003 (626 s.)

[2] Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı-XX əsrin ikinci yarısında. Bakı: Azərnəşr, 2004 (326 s.)

[3] Гасанлы Д.П. Хрущевская «оттепель» и национальный вопрос в Азербайджане (1954-1959). Москва: Флинта, 2009 (611 с.)

[4] Азербайджан в цифрах. Краткий статистический сборник. Баку, Азернешр, 1964 (302 с.)

[5] Народное хозяйство Азербайджанской ССР к 50-летию СССР. Юбилейный статистический ежегодник. Баку, Центральное Статистическое Управление, 1972 (283 с.)

[6] Mustafayev İ.D. Azərbaycan Kommunist Partiyasının XXII qurultayına Azərbaycan KP MK-nın hesabat məruzəsi. Bakı: Azərbaycan KP MK-nın birləşmiş nəşriyyatı, 1958 (111 s.)

hissəsində Azərbaycan SSR-in 50-ci illər tarixi geniş, lakin o zaman açıqlanması mümkün olmayan bir çox problemlərdən yan keçməklə işıqlandırılır.[1] "Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri" kitabında öz əksini tapmış, Kommunist partiyasının qurultay və plenumlarında qəbul olunmuş qərarlar, respublikada gedən ictimai-siyasi, sosial-iqtisadi və mədəni proseslərin dəyərləndirilməsi tənqidi şəkildə araşdırılmışdır.[2] Keçmiş SSRİ-də çap olunmuş "SSRİ-də Ali təhsil" adlı statistik topluda Azərbaycanda təhsilin inkişafına dair məlumatlar da öz əksini tapmışdır.[3] Ümummilli lider H.Ə. Əliyevin "Müstəqilliyimiz əbədidir" adlı kitabının müxtəlif cildlərində toplanmış zəngin materiallarda Azərbaycanın 50-ci illər tarixinin müxtəlif aspektlərinə dair dəyərli məlumatlar vardır.[4]

Tədqiqat işinin yazılmasında istifadə olunan arxiv sənədləri və materialları içərisində əsas yeri Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivinin (AR MDA) fondları tutur. AR MDA-nın aşağıdakı fondları elmi-tədqiqat işi üçün əsas mənbə kimi istifadə olunub: 271, 410, 411, 1610, 1637, 1640, 3024, 3029, 3071. Həmçinin tədqiqat işində öyrənilən dövrün dövlət rəhbərlərinin əsərlərindən, plenum, qurultay materiallarından da mənbə kimi istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi XX əsrin 50-ci illərinin ikinci yarısında baş verən sosial-iqtisadi prosesləri elmilik baxımından araşdırmaqla ziddiyyətli və mütəhərrik bir dövr olan bu dövrün Azərbaycan tarixindəki yerini və ölkənin gələcək inkişafına təsirini müəyyənləşdirməkdən ibarətdir. Tədqiqatın məqsədinə uyğun olaraq aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

-İ.V. Stalinin vəfatından sonra İttifaqda gedən proseslərin Azərbaycana təsirini, M.C. Bağırovun respublika rəhbərliyindən kənarlaşdırılmasından sonra Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyəti təhlil etmək;

---

[1] История Азербайджана в III томах. III том, вторая часть. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1963 (529 с.)

[2] Очерки Истории Коммунистической Партии Азербайджана. Баку: Азербайджанское государственное издательство, 1963, 771 с.

[3] Высшее образование в СССР. Статистический сборник. Москва, Госстатиздат, 1961 (611 с.)

[4] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı: Azərnəşr, 1997 (612 s.); Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. II kitab. Bakı: Azərnəşr, 1997 (640 s.); Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. III kitab. Bakı: Azərnəşr, 1997 (488 s.); Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. VIII kitab. Bakı: Azərnəşr, 1998 (488 s.); Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. XIX kitab. Bakı: Azərnəşr, 2006 (528 s.)

-Respublika rəhbərliyinə yeni şəxslərin gəlməsi məsələsi, xüsusilə respublikanın ictimai-siyasi həyatında demokratik meyllərin artması, milli oyanış və digər bu kimi məsələləri tədqiq etmək;

-XX əsrin 50-ci illərinin ortalarından başlayaraq yaranmış yeni şəraitdə respublikanın sosial-iqtisadi həyatında əsaslı islahatların keçirilməsi, iqtisadiyyatın ölkənin təbii-iqlim şəraitinə uyğun, milli maraqları nəzərə almaqla inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirləri tədqiq və təhlil etmək;

-Respublikanın SSRİ-nin tərkibində iqtisadi müstəqilliyə nail olmaq cəhdləri, sənayedə və kənd təsərrüfatında intensiv və dinamik inkişafın təmin edilməsində respublika rəhbərliyinin şəxsi keyfiyyətlərini, idarəçilik bacarığını, kadr siyasətini, təhlil etmək;

-Kənd təsərrüfatının inkişafında tarixi təcrübənin və yerli şəraitin nəzərə alınması, xüsusilə də dənli bitkilərin əkin sahələrinin genişləndirilməsi məqsədi ilə həyata keçirilən tədbirləri ardıcıllıqla tədqiq edib, əldə edilən nailiyyətləri aşkarlamaq;

-XX əsrin 50-ci illərinin ikinci yarısında respublikanın sosial həyatında, o cümlədən elm, təhsil, səhiyyə, mətbuat və digər sahələrdə görülmüş işləri şərh etmək və bu sahədə olan nöqsanların səbəblərini araşdırmaq;

-Tədqiqat zamanı XX əsrin 50-ci illərinin ikinci yarısında respublika rəhbərliyinin ittifaq hökumətinin yeritdiyi sosial-iqtisadi siyasətini Azərbaycanın milli maraqları ilə uzlaşdırmaq səyi nəticəsində baş verən müsbət dəyişiklikləri, uğurları, nailiyyətləri və bununla yanaşı 50-ci illərin sonunda respublikadakı milli oyanışdan ehtiyatlanan Mərkəzin Azərbaycana təzyiqlərinin səbəblərini müasir dövrün tələbləri əsasında analiz etməklə nəticə çıxarmaq.

**Tədqiqat işinin metodoloji əsası**: Dissertasiya işinin metodoloji əsasının iqtisadi və sosial idarəetmə haqqında, iqtisadi və sosial inkişafı təmin edən nəzəri müddəaların, illərlə toplanmış təcrübənin ümumiləşdirilməsi, dövlət və hökumət rəhbərlərinin iş təcrübəsinin sistemləşdirilməsi, onların şəxsi keyfiyyətləri, təşkilatçılıq bacarığı, milli dəyərlərə münasibəti ilə bağlı faktların elmi cəhətdən şərhi və çıxarılan nəticələr; respublika rəhbərliyinin nitqlərində, əsərlərində, çıxışlarında Azərbaycanın iqtisadi, sosial inkişafına dair irəli sürülən elmi metodoloji fikirlərin əsasını milli dövlətçilik ideologiyası olan azərbaycançılıq konsepsiyası təşkil edir.

**Tədqiqat işinin elmi yeniliyi**: Tədqiqatın elmi yeniliyi aşağıdakı xarakterik cəhətlərlə səciyyələnir:

-XX əsrin 50-ci illərinin ikinci yarısında Sovet İttifaqında başlanan "mülayimləşmə" prosesindən istifadə edən respublika rəhbərliyinin iqtisadiyyatın ölkənin təbii-iqlim şəraiti və milli maraqlarını nəzərə alınmaqla inkişaf etdirmək səyləri, sosial sahəyə diqqətin artırılması nəticəsində əldə edilən nailiyyətlərin müəyyənləşdirilməsi;

-Sənayenin sürətli inkişafı ilə əlaqədar Bakıda yeni iş yerlərinin açılması, bu iş yerlərinə azərbaycanlıların cəlb olunması ilə şəhərdə demoqrafiq vəziyyətin dəyişdirilməsi və bununla da mərkəzin Bakının Azərbaycanın tərkibindən çıxarıb, birbaşa Moskvaya tabe etmək planının pozulması kimi dəyərli uğurun daha geniş şəkildə araşdırılması və ümumiləşdirilmiş nəticələrin əldə olunması;

-50-ci illərin ikinci yarısında sənaye və kənd təsərrüfatının başlıca sahələrinin respublikanın iqlim və coğrafi şəraitinə və imkanlarına uyğun olaraq inkişaf etdirilməsi nəticəsində əldə edilən uğurların təhlil edilməsi;

-Elmin, mədəniyyətin, səhiyyənin, kütləvi informasiya vasitələrinin, sosial sahənin inkişafında əldə edilən nailiyyətlərin, Azərbaycanda milli-dirçəliş meyllərinin güclənməsini və mərkəzin respublikaya təzyiqi və bunun nəticələrinin sistemli şəkildə təhlil edilməsi;

-Tədqiq olunan dövrdə respublikada iqtisadi müstəqilliyə nail olmaq istiqamətində müəyyən addımlar atılması, mərkəzin təzyiqlərinə baxmayaraq sosial-iqtisadi problemlərin həllində milli maraqların nəzərə alınması istiqamətdə əldə edilmiş uğurların müasir dövr üçün əhəmiyyətinin müəyyənləşdirilməsi;

**Tədqiqat işinin praktik əhəmiyyəti**: Tədqiqat işinin materiallarından, çıxarılmış elmi nəticələrdən Azərbaycanın iqtisadi və sosial inkişaf tarixinin yazılmasında istifadə oluna bilər. Tədqiqat nəticəsində ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilən arxiv materialları, bir sıra dəyərli sənədlər bu gün müstəqil dövlət quruculuğunda, milli iqtisadiyyatın və yeni sosial siyasətin formalaşdırılmasında, inzibati-amirliyə əsaslanan sosial-iqtisadi siyasətdən öz təbii qanunları ilə idarə olunan bazar iqtisadiyyatına keçidin əhəmiyyətinin dərk edilməsində, milli özünüdərkin, milli təfəkkürün inkişafında faydalı ola bilər.

Dissertasiyanın materiallarından Azərbaycanın iqtisadi, sosial inkişaf tarixinin tədrisində, ali və orta ixtisas məktəblərinin müəllim və tələbələri, elmi işçiləri, iqtisadi və sosial siyasət məsələləri ilə məşğul olan tədqiqatçılar da istifadə edə bilərlər. Tədqiqatın nəticələri ali məktəblərin bakalavr, magistr pillələrində xüsusi ixtisas kursu kimi tədris oluna bilər.

**Tədqiqat işinin aprobasiyası**: Dissertasiya işi Lənkəran Dövlət Universitetinin "Tarix və fəlsəfə" kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas məzmununu əks etdirən müddəalar müəllifin çap olunmuş məqalələrində müxtəlif beynəlxalq və respublika əhəmiyyətli konfranslardakı çıxış və məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu:** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN QISA MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, metodoloji əsası, məqsəd və vəzifələri, elmi yeniliyi, praktik əhəmiyyəti izah edilmişdir. Dissertasiyanın **"XX əsrin 50-ci illərinin ortalarında Azərbaycanda ictimai-siyasi vəziyyət və onun inkişaf istiqamətləri"** adlanan birinci fəsli iki yarım fəsildən ibarətdir. **"XX yüzilliyin 50-ci illərinin ortalarında Azərbaycanda siyasi durum və siyasi sistemi təkmilləşdirmək cəhdləri"** adlanan birinci yarım fəsil 50-ci illərin ortalarındakı siyasi vəziyyətdən bəhs edir. 1953-cü ildə Stalinin vəfatından sonra hakimiyyət uğrunda mübarizədə daha çevik hərəkət edən kommunist partiyasının rəhbəri Xruşşovun səyi ilə təhlükəsizlik orqanlarına rəhbərlik edən L. Beriya həbs edildi. 1956-cı ildə Sov. İKP-nin XX qurultayından sonra Stalinin şəxsiyyətinə pərəstişin aradan götürülməsi ilə ölkənin ictimai-siyasi həyatında mülayimləşmə başlandı. Güc orqanları, habelə partiya aparatının Beriyanın əlaltılarından təmizlənməsi prosesi Azərbaycanda da kadr dəyişikliyinə səbəb oldu. M.C. Bağırov 1953-cü ildə respublikaya rəhbərlikdən uzaqlaşdırıldı və 1956-cı ilin aprel ayında ölüm cəzasına məhkum edildi.[1] Bəraətvermə prosesi mühüm siyasi kompaniya kimi planlaşdırılmışdı. Buna baxmayaraq bu proses böyük humanist addım idi. Stalinizm dövrünün nöqsanları, Stalinin şəxsiyyətinə pərəstiş, totalitar rejim, yol verilmiş nöqsanlar, milyonlarla günahsız insanın məhv edilməsi ciddi tənqid olunmağa başlandı. Bir sıra ümumdemokratik dəyişiklər edilsə də, yenə də ölkədə, o cümlədən Azərbaycanda da qeyri-demokratik rəhbərlik metodları qalmaqda davam edirdi. Çünki marksizm-leninizm hakim ideologiya olaraq ictimai mülkiyyətə söykənirdi, cəmiyyətin inkişafına siniflilik baxımından yanaşırdı.

---
[1] Mir Cəfər Bağırovun məhkəməsi, Bakı: Yazıçı, 1993, 120 s.

Lakin mövcud olan məhdud imkanlardan xalqın xeyrinə istifadə etmək, milli-mənəvi oyanışa kömək göstərmək üçün ehtiyatlı addımlar atılırdı. 50-ci illərin ortalarında siyasi ab-havanın nisbətən yumşalması ilə əlaqədar Azərbaycanda müşahidə olunan milli-dirçəliş meylləri Mərkəzdə kök salmış şovinizmin daha da güclənməsinə səbəb oldu. 1957-ci ildə mühafizəkar siyasi rəqiblərini məğlub edib rəhbər vəzifələrdən kənarlaşdırdıqdan sonra əlində böyük hakimiyyət cəmləşdirən Xruşşov partiya və cəmiyyət üzərində şəxsi amirliyini gücləndirdi. Mərkəzdə artıq liberalizm və islahatçılıq cəhdlərindən imtina etsələr də, Azərbaycanda "kommunist" millətçiliyi dərinləşməkdə idi. Mərkəz xalqı qorxutmaq üçün növbəti dəfə Dağlıq Qarabağ məsələsini ortaya atdı. Lakin sərhəd dəyişikliklərinin mübahisəli əraziləri olan digər respublikalarda da arzuedilməz reaksiyalar doğuracağından ehtiyat edən Moskva Azərbaycanda məkrli siyasətindən çəkindi.

Birinci fəslin ikinci yarım fəsli **"50-ci illərin ortalarından başlayaraq "mülayimləşmə" dövründə respublikada ictimai həyat və milli dirçəliş meylləri"** adlanır. SSRİ-də baş verən ciddi dəyişikliklər respublika rəhbərliyi qarşısında mühüm vəzifələr qoyurdu. 1954-cü ildə İmam Mustafayev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Sadıq Rəhimov Azərbaycan SSR Nazirlər Sovetinin sədri, Mirzə İbrahimov Ali Sovetin Rəyasət Heyətinin sədri təyin olundu. Respublika rəhbərləri yeni şəraitdə mədəniyyətin, elmin, təhsilin inkişaf etdirilməsinə, xalq təsərrüfatının tərəqqisinə nail olmağa cəhd göstərdilər.[1] 50-ci illərin ikinci yarısında iqtisadiyyatın ölkənin təbii-iqlim şəraitinə uyğun yeni strukturlarının yaradılmasına cəhd edildi. Respublikanın iqtisadi müstəqilliyinə nail olmaq üçün səy edilirdi, pambıq istehsalı azaldıldı, əvəzində taxıl, kartof, tərəvəz, meyvə, çay yarpağı istehsalı nisbətən artdı.[2] Bakı şəhərində sənayenin sürətlə inkişaf etdirilməsi nəticəsində çoxlu sayda yeni iş yerləri yaradıldı. Bölgələrdən gələn gənclər bu iş yerlərinə cəlb olundu. Bakıda azərbaycanlıların sayının artması ilə yanaşı paytaxtın ictimai–iqtisadi həyatında azərbaycanlı kadrların rolu artdı. Bu tədbirlər Xruşşovun və Mərkəzdəki ermənipərəst qüvvələrin Bakını Azərbaycanın tərkibindən çıxarıb müstəqil inzibati vahid kimi Mərkəzə tabe etmək planını pozdu. 1956-cı il avqustun 21-də Azərbaycan SSR Ali Soveti 1937-ci ildə qəbul edilmiş Azərbaycan SSR-in Konstitusiyasına respublikada

[1] Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı-XX əsrin ikinci yarısında. Bakı: Azərnəşr, 2004, s.13
[2] Mustafazadə T.T. Ümumi tarix IV cild, Bakı, Elm, 1998, s.30

dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə etdi.[1] Dil haqqında qanun milli şüurun güclənməsinə, bir çox ziyalılarda, geniş xalq kütləsində milli əhval-ruhiyyənin yaranmasına səbəb oldu.

Xruşşovun liberal islahatları, xüsusilə kənd əhalisinə pasportların verilməsi, həmçinin dövlət dili haqqında qanunun qəbul edilməsi və onun tətbiqi, 50-ci illərin ortalarında Azərbaycanda, çar Rusiyasının müstəmləkəçi siyasəti ilə əlaqədar olaraq ölkəyə köçürülmüş rusların mərkəzi Rusiyaya qayıtması prosesinə təkan verdi. Sovet rəhbərliyi Moskva üçün arzuolunmaz bu prosesə mane olmaq üçün Azərbaycanda qəbul olunmuş dövlət dili haqqında qanunun geniş müzakirəsini təşkil etdi. Ancaq mərkəzin bu addımı gözlənilən nəticəni vermədi.[2]

Respublikanın ictimai-siyasi həyatında mövcud siyasi sistemin əsas prinsiplərinə toxunmadan ictimai təşkilatların, xalq hakimiyyəti orqanlarının fəaliyyətini canlandırmaq üçün şərait yaradıldı. Azərbaycan SSR Ali Sovetinin səlahiyyət dairəsi nisbətən genişləndi. 1956-cı ildə Ali Sovetin sənaye, kənd təsərrüfatı, mədəni-maarif, səhiyyə və ictimai təminat, tikinti və abadlıq komissiyaları yaradıldı. Məhkəmə quruculuğu məsələləri, mülki və cinayət məcəllələrinin qəbulu respublikaların öz ixtiyarına verildi.[3] Lakin yenə də partiyanın sovetlər üzərində qəyyumluğu saxlandığı, istər ali, istərsə də yerli sovetlərə seçkilər əvvəlki prinsiplərlə keçirildiyi üçün bütün pillələrdən olan hakimiyyət orqanlarının fəaliyyəti əvvəlki kimi formal xarakter daşıyırdı. Mərkəzin respublika rəhbərliyinə mənfi münasibətinin əsas səbəbi Azərbaycanda milli-dirçəliş meyllərinin artması idi. Mərkəzin göstərişi ilə 1958-ci ildə M. İbrahimov və S. Rəhimov vəzifələrindən uzaqlaşdırıldılar. Millətçilikdə günahlandırılan M. İbrahimovdan fərqli olaraq respublikanın iqtisadi maraqlarını qorumağa çalışan S. Rəhimov yerliçilikdə günahlandırıldı.

1959-cu ildə Xruşşovun göstərişi ilə Azərbaycan partiya təşkilatının işini yoxlamaq üçün Sov. İKP MK Təşkilat Şöbəsi müdirinin müavini Şikinin başçılığı ilə komissiya göndərildi. Komissiya iftiralarla dolu, lakin mərkəzi təmin edən bir hesabat yazdı. Yoxlama materialları İ.D. Mustafayevi vəzifədən götürmək üçün əsas oldu.[4]

---

[1] Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı-XX əsrin ikinci yarısında. Bakı: Azərnəşr, 2004, s.14

[2] Гасанлы Д.П. Хрущевская «оттепель» и национальный вопрос в Азербайджане (1954-1959). Москва: Флинта, 2009, с. 171-172

[3] Azərbaycan tarixi 7 cilddə, VII cild, Bakı, 2003, s. 156

[4] XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik / Y.B. Yusifov və T.T. Vəliyevin redaktəsilə. Bakı: Çaşıoğlu, 2004, s.386

Dissertasiyanın **"XX əsrin 50-ci illərinin ikinci yarısında Azərbaycanın iqtisadi həyatı"** adlanan ikinci fəsli iki yarım fəsildən ibarətdir. Birinci yarım fəsil **"Respublikada sənayenin inkişafında çətinliklər və problemlər"** adlanır. XX yüzilliyin 50-ci milərində Azərbaycan keçmiş Sovetlər Birliyinin tərkibində olduğundan ölkənin xalq təsərrüfatı da mərkəzləşdirilmiş qaydada, vahid mərkəzdən idarə olunurdu. SSRİ-nin inzibati-amirlik metodu ilə idarəçiliyi Azərbaycanın milli mənafeyinə, iqtisadi-sosial inkişafına, əhalinin həyat səviyyəsinin yaxşılaşmasına mənfi təsir göstərir, hətta çox vaxt həmin mənafelər kobud şəkildə pozulurdu. İqtisadiyyata inzibati rəhbərliyin azacıq belə zəifləməsi, təsərrüfat rəhbərlərinin başlıca olaraq qorxuya əsaslanan, şəxsi məsuliyyətinin azalması iqtisadiyyatın geriləməsinə səbəb oldu. Mövcud mərkəzləşdirilmiş iqtisadiyyata təsərrüfat hesabı, maddi həvəsləndirmə elementləri gətirmək üçün yollar axtarılırdı. Bəzi islahatlar həyata keçirildi. 1956-cı ilin mayında Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin qərarı ilə xalq təsərrüfatının idarə olunmasında müttəfiq respublikaların rolu artırıldı. 1956-cı ildə sənaye məhsulunun 84 faizi və ya 1953-cü ilə nisbətən iki dəfə çox hissəsi Azərbaycan SSR-in tabeliyindəki müəssisələrdə istehsal olunurdu.

Lakin bu təbirlər kosmetik səciyyəli, yarımçıq tədbirlər idi. Kommunist partiyasının iqtisadi və siyasi amirliyinin saxlandığı şəraitdə başqa cür də mümkün deyildi. Ölkə rəhbərliyi vəziyyətdən çıxmaq üçün daha bir yeni cəhd göstərdi. Operativ idarəçiliyi mərkəzdən yerlərə keçirmək üçün bölgələrdə xalq təsərrüfatı şuraları təşkil olundu. 1957-ci ilin iyulunda Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Azərbaycan iqtisadi rayonunun Xalq Təsərrüfatı Şurası yaradıldı. Respublikanın 400-dək sənaye müəssisəsi onun ixtiyarına verildi. Sənaye məhsulunun, demək olar ki, hamısı respublikaya tabe olan müəssisələrdə istehsal olunurdu.[1] Bütün bunlar Azərbaycan SSR-də sənayenin inkişafına münasib imkanlar açdı. Xalq Təsərrüfatı Şurası təşkil edildikdən sonra pərakəndə şəkildə olan birtipli sənaye müəssisələrini birləşdirmək üçün xeyli iş görülmüş, müəssisələrə rəhbərlik mərhələləri xeyli azaldılmış, müəssisələrin ixtisaslaşdırılması, kooperativləşdirilməsi işi nəzərə çarpacaq dərəcədə yaxşılaşdırılmışdı.

---

[1] XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik / Y.B. Yusifov və T.T. Vəliyevin redaktəsilə. Bakı: Çaşıoğlu, 2004, s.392

SSRİ Neft Sənayesi Nazirliyi 9 iyul 1954-cü il tarixində qəbul etdiyi "Neft sənayesini daha da inkişaf etdirilməsinə dair tədbirlər haqqinda" adlı qərarına əsasən Azərbaycanın neft sənayesinə ayrılan dövlət vəsaiti iki dəfə azaldıldı. Kəşfiyyat və qazma işləri 4,5 dəfə azaldılsa da neft çıxarılmasına dair plan 1954-cü il səviyyəsində, 15 milyon ton olaraq qalırdı. 1956-cı ilin sonunda SSRİ Dövlət Plan Komitəsi sədrinin müavini Mkrtıçyan və şöbə müdiri Kalantarovun Partiya Nəzarətı Komitəsinin sədri N.Şvernikə göndərdikləri məktubda Azərbaycanın neft sənayesinin perspektivsizliyi ön plana çəkilirdi.[1] Əsas məqsəd Azərbaycanı neft sənayesinin inkişafı üçün ayrılan maliyyə vəsaitindən məhrum etmək idi.

Ancaq İ. Mustafayevin vaxtında işə qarışması nəticəsində respublikada neft sənayesinin ləğvinin qarşısı alındı. 1954–cü ildə Neft Sənayesi Nazirliyinin yaradılması, xüsusilə bu nazirliyə rəhbərlik etmək üçün Mustafayev tərəfindən sovet neftçiləri arasında böyük nüfuzu olam S. Vəzirovun respublikaya dəvət edilməsi neft sənayesinin inkişafında mühüm rol oynadı.[2] Həyata keçirilmiş bir sıra tədbirlərə baxmayaraq neft hasilatının artım faizinin nisbətən aşağı olmasına müharibədən qabaqkı dövrdə və müharibə illərində Bakı rayonunda neft yataqlarının gərgin istismarı da təsir etmişdi.

Sənayenin inkişafı ilə əlaqədar onun strukturu da dəyişirdi. Neft sənayesi ilə yanaşı ağır sənayenin digər sahələri də inkişaf edirdi. Kimya, dağ–mədən, qara və əlvan metallurgiya, elektrik enerjisi istehsalı kimi sənaye sahələrinin inkişafında uğurlar əldə edilmişdi. Azərbaycan ərazisində sənayenin daha səmərəli yerləşdirilməsinə diqqət artmışdı. Bakıda ilə yanaşı, respublikanın digər şəhər və rayonlarda yeni iri sənaye mərkəzləri yaranmışdı.

50-ci illərdə enerji istehsalı sənayesi sürətlə inkişaf etdi. Bir sıra istilik və su-elektrik stansiyaları tikildi. 1956-1957-ci illərdə Varvara SES istismara verildi. 1959-cu ildə Əli-Bayramlı şəhərində Avropada ilk açıq tipli elektrik stansiyası sayılan Əli-Bayramlı DRES-in tikintisinə start verildi. Şimal DRES-də bütün SSRİ məkanında ilk dəfə olaraq 150 MVT gücündə açıq tipli enerji bloku 1960-cı ildə istifadəyə verildi.[3]

---

[1] Алиев И.Г. Каспийская нефть Азербайджана. Москва, Известия, 2003, с. 100-101, 103

[2] Гасанлы Д.П. Хрущевская «оттепель» и национальный вопрос в Азербайджане (1954-1959). Москва: Флинта, 2009, с. 335

[3] Cəfərov S. Xalqa bağlanan ömür. X kitab. Bakı, Elm, 2003, s. 178

Ağır sənayenin inkişaf etdirilməsi ilə bərabər yüngül və yeyinti sənayesinin inkişafına da böyük diqqət verilirdi. Mingəçevirdə iri toxuculuq kombinatı, Bakıda Kamvol fabriki, Əli-Bayramlıda yağ kombinatı və digər yerlərdə bir sıra müəssisələr tikilmişdi.[1] Mərkəzin imperialistpərəst siyasətinə və sosialist iqtisadiyyatına xas olan mənfi xüsusiyyətlərə baxmayaraq bu dövrdə sənayesinin inkişafında böyük uğurlar əldə edildi.

İkinci fəslin ikinci yarım fəsli **"50-ci illərin ikinci yarısında Azərbaycan SSR-nin kənd təsərrüfatı"** adlanır. Bu dövrdə Mərkəz Azərbaycanda öz mənafeyinə uyğun aqrar siyasət həyata keçirirdi. Məqsəd həm daşınıb aparılan xammal-pambıq, tərəvəz və üzüm istehsalını artırmaq, həm də respublikanı vacib ərzaq məhsulları sarıdan Mərkəzdən tam asılı vəziyyətə salmaq idi. İqtisadiyyatın aqrar bölməsində ciddi problemlər mövcud idi. Kənd təsərrüfatına rəhbərlikdə qeyri-iqtisadi metodlardan istifadə olunur, kolxoz və sovxozlara rəhbərlikdə, istehsalın planlaşdırılmasında subyektivizmə yol verilirdi. Kadrların seçilməsi və yerləşdirilməsində nöqsanlar var idi.

50-ci illərin ortalarında kənd təsərrüfatında planlaşdırmanın yeni qaydası tətbiq olunmuşdu. İndi yuxarılardan təsərrüfatlara yalnız dövlət tədarükü tapşırıqları verilirdi. Hətta rayon kənd təsərrüfatı idarələri də ləğv edilmişdi. SSRİ Ali Sovetinin 1958-ci il 31 mart tarixli "Kolxoz quruluşunu daha da inkişaf etdirmək və maşın–traktor stansiyalarını yenidən təşkil etmək haqqında" qərarına əsasən MTS-lər ləğv olunmuş, onların texnikası kolxozlara satılmışdı.[2] Bu proses 1958-ci ildə başa çatdırıldı. Lakin mənəvi və fiziki cəhətdən köhnəlmiş texnikanı MTS-lərdən alan, lakin ondan lazımı səmərə götürə bilməyən bir çox kolxozlar müflisləşdi. Kənd təsərrüfatını yüksəltməyin mühüm şərtlərindən biri kolxoz və sovxozların elektrikləşdirilməsi idi. 50-ci illərdə Azərbaycanın kənd təsərrüfatını inkişaf etdirmək sahəsində həyata keçirilən tədbirlər kolxoz və sovxozların maddi–texniki bazasını nisbətən möhkəmləndirdi. Aqrar sahəyə kapital qoyuluşunun artırılması, əkin sahələrinin genişləndirilməsi hesabına kənd təsərrüfatının bir sıra sahələrində müvəffəqiyyətlər əldə edilsə də, pambıqçılıq sahəsində görülən tədbirlər istənilən nəticəni vermədi.

---

[1] Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı-XX əsrin ikinci yarısında. Bakı: Azərnəşr, 2004, s.27

[2] XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik / Y.B. Yusifov və T.T. Vəliyevin redaktəsilə. Bakı: Çaşıoğlu, 2004, s.392

50-ci illərin ikinci yarısında Azərbaycana rəhbərlik etmiş İ. Mustafayev respublika kənd təsərrüfatının birtərəfli inkişafının qarşısını almaq üçün pambıq istehsalına nisbətən dənli bitkilərin istehsalının artırılmasına daha çox diqqət yetirirdi. Taxıl istehsalının artırılması respublikanın iqtisadi müstəqilliyinin təmin edilməsi istiqamətində atılmış bir addım idi. Kənd təsərrüfatının mühüm sahələri olan tütünçülük, çayçılıq, tərəvəzçilik sahələrində məhsul istehsalı artırdı. 50-ci illərdə üzümçülüyün inkişaf etdirilməsində də müəyyən uğurlar əldə edilmişdi. 1959-cu ildə Moskva tərəfindən Azərbaycana rəhbər təyin edilən V. Axundov mərkəzin təzyiqi altında əsas diqqəti pambıqçılığın inkişafına yönəltdi.

Respublikada heyvandarlığı inkişaf etdirmək və mal-qaranın məhsuldarlığını yüksəltmək üçün bir sıra tədbirlər görüldü. Lakin dağlıq rayonlarda çoxlu kiçik təsərrüfatlar ləğv edildiyindən, yem bazası zəif olduğundan bu sahə hələ də geri qalırdı. 50-ci illərin ikinci yarısında kolxozçuların, fəhlələrin və qulluqçuların şəxsi mülkiyyətində olan mal-qaranın sayının artmasını respublika rəhbərliyinin bu dövrdə əldə etdiyi uğurlardan biri hesab etmək olar. 1958-ci ildən etibarən kənd təsərrüfatı məhsullarının tədarükündə və qiymətlərində mövcud olan mürəkkəblik və çoxpillələlik ləğv olundu. 50-ci illərin ikinci yarısında Azərbaycanın kənd təsərrüfatında inkişafa iqtisadi metodlarla deyil, təsərrüfata inzibati rəhbərliyin gücləndirilməsi hesabına nail olunmuşdu və çoxlu problemlər qalmaqda idi. Mövcud ictimai münasibətlər kəndli təsərrüfatının inkişafı üçün lazım olan şəraitin yaranmasına mane olurdu. 1959-cu ildən kəndlilərin ictimai təsərrüfatlara iqtisadi marağını artırmaq üçün onların şəxsi yardımçı təsərrüfatlarına qarşı ciddi tədbirlər həyata keçirildi. Həyətyanı torpaq sahələrinin bir hissəsi kəsilib kolxozçuların əlindən alındı. Şəxsi təsərrüfatlarda bəslənən mal-qaranın sayı minimuma endirildi. Lakin bu tədbirlərlə kəndlilərin ictimai təsərrüfatların inkişafına marağını artırmaq mümkün olmadı. Həyata keçirilən kompleks tədbirlərə baxmayaraq kənd təsərrüfatında əsaslı dönüş baş vermədi. Buna səbəb qəbul olunmuş qərarların kənddə iqtisadi vəziyyəti mövcud inzibati–amirlik sisteminə toxunmadan dəyişdirməyə yönəldilməsi idi.

Dissertasiyanın **“XX əsrin 50-ci illərinin ikinci yarısında respublikanın sosial-mədəni inkişafı”** adlanan üçüncü fəsli iki yarım fəsilə bölünür. Birinci yarım fəsil **“Sosial vəziyyət: Əhali, səhiyyə, rabitə, sosial tikinti”** adlanır. XX əsrin 50-ci illərinin ikinci yarısı qısa bir dövrü əhatə etsə də respublikamızda sosial və mədəni quruculuq sahəsində mühüm nailiyyətlər əldə edilmişdi. 50-ci illərin ikinci yarısında

iqtisadiyyatda baş verən müsbət dəyişikliklər əhalinin sosial tərkibinə, istehlak tələblərinin ödənilməsinə təsir göstərdi.

50-ci illərin sonlarında respublikada əhalinin sayı artıq müharibədən əvvəlki səviyyəyə çatmışdı. 1959-cu ilin əvvəllərində ölkədə 3 milyon 698 min nəfər adam yaşayırdı.[1] Azərbaycanın əmək ehtiyatları Sovet İttifaqının digər regionlarında məhsuldar qüvvələrin inkişaf etdirilməsi üçün cəlb olunurdu. Azərbaycanın bir çox şəhərlərində və kənd rayonlarında məşğuliyyət problemləri, xüsusən ixtisas üzrə işlə təmin olunmada ciddi çətinliklər var idi.

1956-cı il sentyabrın 8-də hökumət azmaaşlı fəhlə və qulluqçuların əmək haqqını 1957-ci il yanvarın 1-dən artırmağı qərara aldı. Azmaaşlı zəhmət adamlarının əmək haqqının artırılması ilə yanaşı ixtisas səviyyəsindən, iqtisadi əhəmiyyətindən, mürəkkəbliyindən, əmək tutumundan, iş şəraitindən, coğrafi və iqlim şəraitindən asılı olaraq fəhlə və qulluqçuların əmək haqqı tənzimləndi.[2] SSRİ Ali Soveti 1956-cı il iyulun 14-də dövlət təqaüdçüləri haqqında qanun qəbul etdi. Qanuna əsasən qocalığa görə təqaüdlərin həcmi iki dəfədən çox, əlilliyə görə təqribən 50 faiz artırıldı. SSRİ Ali Sovetinin 1956-cı il 26 mart tarixli fərmanı ilə ana olmuş qadın əlavə 112 günlük pulu ödənilən məzuniyyət alırdı. Yeniyetmələrin və gənclərin iş şəraitini və mühafizəsini yaxşılaşdırmaq üçün mühüm tədbir görüldü.[3] Sənaye və kənd təsərrüfatı istehsalının, eləcə də əhalinin real gəlirinin artmasına müvafiq olaraq dövlət və kooperativ ticarətində pərakəndə mal dövriyyəsinin ümumi həcmi əvvəlki səviyyəni ötüb keçmişdi. Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində onların şəxsi və kollektiv çoxsahəli yardımçı təsərrüfatları, eləcə də kolxoz ticarəti mühüm rol oynayırdı.

Lakin ailələrin böyük əksəriyyətinin gəliri adambaşına rəsmi müəyyən olunmuş yaşayış minimumu həddindən yuxarı qalxmırdı. Buna səbəb pulun alıcılıq qabiliyyətinin durmadan aşağı düşməsi idi. İstehlak malları istehsalının ləng artması ilə əlaqədar əhalinin istehlak tələblərini ödəmək çox çətin idi. Kəndlərdə şəxsi yardımçı təsərrüfatların sıxışdırılması da əhalinin ərzaqla təmin olunmasına mənfi təsir göstərdi. Kəndlilərin maddi vəziyyəti şəhər əhalisinə nisbətən daha aşağı idi. Fəhlə və qulluqçuların, habelə onların ailələrinin ərzaq məhsulları ilə təchizatının

---

[1] Əlimirzəyev X. Azərbaycan kəndi Sovet hakimiyyəti illərində. Bakı: Azərnəşr, 1963, s.162

[2] Azərbaycan tarixi 7 cilddə, VII cild, Bakı, 2003, s. 134

[3] Yenə orada, s. 136-138

xeyli yaxşılaşmasına baxmayaraq onlar tərəfindən ərzaq məhsullarının istehlakı kifayət qədər olmayıb elmi cəhətdən əsaslandırılmış normalardan və SSRİ üzrə orta göstəricilərdən xeyli aşağı idi.

50-ci illərin ikinci yarısında mənzil tikintisi xeyli artmışdı. 1956-1958-ci illərdə dövlət və kooperativ təşkilatlar tərəfindən ümumi sahəsi 1188 min kvadratmetr olan mənzil sahəsi tikilib istifadəyə verilmişdi. Bu illərdə şəhərlərdə və şəhərtipli qəsəbələrdə 585 min kvadratmetr fərdi mənzil sahəsi, kənd yerlərində isə 44,7 min fərdi yaşayış evi tikilmişdi.[1] Tikintinin sürətinin durmadan artmasına baxmayaraq, mənzil problemi bütün ölkədə olduğu kimi Azərbaycanda da kəskin olaraq qalırdı. Bu dövrdə Azərbaycan SSR Səhiyyə Nazirliyi Baş Kurortlar İdarəsinin tabeliyində 14 sağlamlıq mərkəzi var idi. Onlardan dördü sanatoriya, onu isə istirahət evi idi.[2] Respublikada fəaliyyət göstərən sanatoriya və kurortlar əhalinin artan tələbatını ödəmirdi. Azərbaycanda ekoloji problemlərin artmasının əsas səbəbi respublikada xammal istehsalını hər vasitə ilə artırmağa çalışan mərkəzin ekoloji problemlərin həll edilməsinə laqeyd münasibəti idi. 50-ci illərin ikinci yarısında həyata keçirilən kompleks tədbirlər nəticəsində əhalinin maddi rifahı yaxşılaşdı.

Üçüncü fəslin ikinci yarım fəsli **“Respublikada mədəni quruculuq”** adlanır. Sovet imperiyası Azərbaycanda siyasi və iqtisadi ağalığının mənəvi dayaqlarını daim möhkəmləndirməyə çalışırdı. Məktəblərdə tədrisin məzmunu mövcud rejimin məqsədlərinə müvafiq şəkildə müəyyən olunurdu. Məktəblərdə sovet cəmiyyəti antaqonist ziddiyyətlərsiz bir ictimai quruluş kimi təqdim və təqdir olunurdu. Azərbaycan tarixi fənni saxtalaşdırılmış dərsliklər və proqramlar üzrə tədris olunurdu. SSRİ Ali Sovetinin 1958-ci ildə qəbul etdiyi “Məktəbin həyatla əlaqəsini möhkəmləndirmək və ölkədə xalq maarif sistemini daha da inkişaf etdirmək haqqında” qanuna əsasən 1959-cu ildən səkkizillik ümumtəhsil müəyyən olundu. Təlim-tərbiyə işi sahəsində də yenidənqurma başlandı, şagirdlərdə müstəqil işləmək vərdişlərinin inkişafına daha çox diqqət yetirilirdi. Lakin bunun üçün nə maddi baza, nə də müəllim kadrları yox idi. Peşələrin özləri də elm və texnikanın perspektiv sahələri ilə deyil, bəsit, texniki cəhətdən geridə qalmış istehsal ilə bağlı idilər.[3]

---

[1] Достижения Советского Азербайджана за 40 лет в цифрах. Статистический сборник. Баку, Азернешр, 1960, с.244-245

[2] AR MDTA: f. 411, siy. 38, iş. 153, v. 81

[3] Mustafazadə T.T. Ümumi tarix IV cild, Bakı, Elm, 1998, s.290

Respublikanın ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayı durmadan artırdı. 1959-cu ilin iyulunda mərkəzin göstərişi ilə təhsilin ruslaşdırılması istiqamətində ciddi addımlar atıldı. Dövlət idarələrində işlərin rus dilində aparılması, bu dili bilməyənlərin vəzifə nərdivanı ilə yüksəlmək imkanının olmamağı adamlarda rus dilində təhsil almaq meylini artırdı. Bu dövrdə mövcud olan obyektiv çətinliklərə baxmayaraq Azərbaycanda təhsil sahəsində müəyyən uğurlar əldə edilmişdi. Elmin köməyi ilə iqtisadi imkanlarını, hərbi gücünü, beynəlxalq nüfuzunu artırmaq üçün sovet dövləti milli respublikadakı potensialından daha səmərəli istifadəyə etməyə çalışırdı. Respublika rəhbərliyi tərəfindən Azərbaycan tarixinin öyrənilməsinə diqqət artırılmışdı. 1958-ci ildə xalqın tarixinə dair üçcildlik fundamental “Azərbaycan tarixi” əsərinin yazılmasına başlandı.[1]

Lakin elmin, xüsusən ictimai elmlərin inkişafına hakim ideologiyanın güclü təzyiqi mənfi təsir göstərirdi. Respublikada elmin maddi-texniki bazasının inkişafına lazımı qədər vəsait ayrılmırdı. Tədqiqat aparmaq üçün müasir avadanlıq, hesablama texnikası, cihazlar çatışmırdı. Alimlərə xarici ədəbiyyatdan, arxivlərdən istifadə etmək, beynəlxalq aləmə çıxmaq çətin idi. Din açıqca sıxışdırıldığından əhalinin çoxu ona gizlində inanır, mənəvi parçalanma baş verirdi. Kommunist ideologiyası kütləvi informasiya vasitələrini, o cümlədən dövri mətbuatı tam inhisarı altında saxlayırdı.

Bütün təzyiqlərə baxmayaraq ədəbiyyatda həyat hadisələrinə tənqidi baxış formalaşmaqda idi. 50-ci illərdə respublikada milli ruhun oyanışı hiss olunurdu. 50-ci illərdə zəngin həyat materialına və sənətin tarixi təcrübəsinə arxalanan yazıçılar yeni ədəbi nailiyyətlər qazandılar. Azərbaycan incəsənəti də inkişafda idi. Azərbaycanda musiqi yaradıcılığının səmərəli inkişafı respublikanın musiqi mədəniyyətinin bütün sahələrinə getdikcə daha böyük təsir göstərirdi. 50-ci illərdə Azərbaycanda teatr və kinonun inkişafında da ciddi müvəffəqiyyətlər əldə olunmuşdu. Azərbaycan rəssamlıq məktəbi daha da inkişaf etməkdə idi.

Dissertasiyanın nəticə hissəsində tədqiqat ümumiləşdirilmiş, əldə edilən nəticələr təhlil edilmiş və elmi araşdırmalara yekun vurulmuşdur.

---

[1] Məmmədov İ.M. Azərbaycan tarixi. Bakı, Adiloğlu, 2005, s. 393

**Dissertasiyanın məzmunu ilə bağlı müəllifin aşağıdakı məqalələri və tezisləri çap olunmuşdur.**

**1.** XX əsrin 50-ci illərində Azərbaycanın sosial-mədəni həyatı. Bakı Universitetinin Xəbərləri, Humanitar Elmlər seriyası, №4, 2004, Bakı, s. 240-245

**2.** XX əsrin 50-60-cı illərində SSRİ-də siyasi sistemi təkmilləşdirmək cəhdləri və Azərbaycan. Tarix və onun problemləri №1-2, Bakı, 2009, s. 181-185

**3.** XX əsrin ortalarında SSRİ-nin Azərbaycan siyasətində erməni faktoru. Bakı Universitetinin Xəbərləri, Humanitar Elmlər seriyası, yubiley buraxılışı, №3 Bakı, 2009, s. 130-134

**4.** XX əsrin ortalarında Azərbaycan dilinə dövlət dili statusu vermək uğrunda mübarizə. Rusiya Federasiyası, Orlov Dövlət Universiteti, Humanitar və sosial elmlər seriyası, № 3, Orlov, 2010, s. 89-92

**5.** XX əsrin 50-ci illərinin ikinci yarısında Azərbaycanda neft sənayesinin inkişaf tarixindən. Lənkəran Dövlət Universitetinin Xəbərləri, Humanitar Elmlər seriyası, Lənkəran, 2010, s. 82-90

**7.** XX əsrin 50-ci illərinin ortalarından başlayaraq "mülayimləşmə" dövründə Azərbaycanda milli dirçəliş meylləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş "Müasir elmin aktual problemləri" Respublika Elmi Konfransının materialları. Lənkəran, 2012, s. 92-93

**8**. Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi dövründə azərbaycan dilinin dövlət statusu uğrunda mübarizə. Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş III Beynəlxalq elmi konfransının materialları, Bakı, 2012, s. 432-435

**9.** XX əsrin 50-60-cı illərində Azərbaycanda təhsilin inkişaf xüsusiyyətləri. Rusiya Federasiyası, Orlov Dövlət Universiteti, Humanitar və sosial elmlər seriyası, № 5, Orlov, 2013, s. 20-24

**K.F.Mahmudov**

**Summary**

**Social-Economic Development of Azerbaijan in the second half of the 50s in XX Century**

During the Sovet period the study of the history of Azerbaijan prevented then by existing prohibitions. One of the most important periods in the history of Azerbaijan which is in need of research is the second half of the 50s of the twentieth century. During the analysis of historiography were used scientific works written not only in Azerbaijan, but also in the USSR, as well as archival materials, research and other sources. Scientific generalizations, statistical calculations, tables and scientific conclusions that reflect the characteristics of the socioeconomic development in the second half of the 50s of the twentieth century can be considered scientific novelty in this study. The thesis was performed at the Department of 'History and Philosophy' Lankaran State University. The thesis consists of an introduction, three chapters, conclusion, and bibliography.

The jurisdiction of the actuality of the goals, objectives and scientific significance determined hronoligicheskie frame work, examines the state of its development and the source base. In the first chapter – 'The socio-political situation in Azerbaijan and main directions of its development in the second half of the 50s of the twentieth century' highlights the socio-political processes in this period. The second chapter – 'The economic life of Azerbaijan in the second national half of the 50s of the twentieth century' devoted to the study of economic development and the Republican leadership's attempts to protect interests. In the third chapter– 'Socio-cultural development of Azerbaijan in the second half of the 50s of the twentieth century' highlights social development, science and national culture, despite the prohibitions of the dominant ideology.

In conclusion are summarized and highlighted the major findings on investigated theme.

**К.Ф.Махмудов**

## Резюме

## «Социально-экономическое развитие Азербайджана во второй половине 50-ых годов XX века»

В советское время изучению истории Азербайджана мешали существовавшие тогда запреты. Одним из важнейших периодов в истории Азербайджана, который нуждается в исследовании, является изучение и обобщение социально-экономических проблем республики во второй половине 50-х годов XX века. Во время анализа историографии были использованы научные труды, написанные не только в Азербайджане, но и в СССР, а также архивные материалы, научные исследования и другие источники.

Научные обобщения, статистические расчеты, таблицы и научные выводы, отражающие особенности социально-экономического развития республики во второй половине 50-х годов XX века можно считать научной новизной данном исследовании.

Диссертация была выполнена на кафедре «История и философия» Ленкоранского Государственного Университета. Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

В ведении обосновывается актуальность, цели, задачи, определяются научная значимость и хронологические рамки работы, анализируется состояние ее разработки и источниковедческой базы. В первой главе - «Общественно-политическая ситуация в Азербайджане и основные направления ее развития во второй половине 50-х годов XX века» освещаются общественно-политические процессы в этом периоде. Вторая глава - «Экономическая жизнь Азербайджана во второй половине 50-х годов XX века» посвящена изучению развития экономики и попыткам республиканского руководства по защите национальных интересов. В третьей главе - «Социально-культурное развитие Азербайджана во второй половине 50-х годов XX века» освещается развития социальной сферы, науки и национальной культуры, несмотря на запреты господствующей идеологии.

В заключении обобщены и изложены основные выводы по исследуемой теме.